**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizəd Məmmədov Yaqub Güloğlan oğlu və Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi Aslanlı Gülağa Qulam oğlunun 26 dekabr 2009-cu il tarixli 172 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Kürdəmir rayonu Xırdapay bələdiyyəsinin üzvlüyünə namizəd Məmmədov Yaqub Güloğlan oğlu və Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi Aslanlı Gülağa Qulam oğlu 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, Müsavat Partiyası tərəfindən irəli sürülmüş 16 namizədin namizədliklərinin qeydə alınmasından imtina edilməsi haqqında adı çəkilən dairə seçki komissiyasının müvafiq qərarlarının ləğv olunmasını xahiş etmiş, habelə 57 saylı Kürdəmir seçki dairəsi üzrə Xırdapay, Şilyan, Kürdəmir, Sor-Sor, Köhünlü və Yenikənd bələdiyyələrinə keçirilən seçkilərin nəticələrinin ləğv olunmasını və yeni seçkilərin təyin olunmasını xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, müraciətdə göstərilən bələdiyyə üzvlüyünə namizədlərin qeydə alınmaması barədə qəbul edilmiş qərarlar dairə seçki komissiyası tərəfindən 2009-cu il noyabrın 23-də maraqlı şəxslərə çatdırılmışdır.

Müraciətin verilmə tarixindən müəyyən olunur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü şikayətin geri qaytarılması barədə rəy vermişdir.

Belə ki, yuxarıda göstərilən Təlimatın 7.1-ci bəndinə əsasən seçki komissiyaları tərəfindən şikayət qeydə alındıqdan və baxılması üçün ekspertə təqdim edildikdən sonra ekspert həmin şikayəti ilkin olaraq nəzərdən keçirir. Bu zaman ekspert şikayətin Seçki Məcəlləsi və bu Təlimatla müəyyən edilmiş qaydaların pozulması ilə daxil olduğunu aşkar etdikdə, bu barədə qrup koordinatorunu məlumatlandırmaqla, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqından Təlimat"ın 4.1.2-ci bəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Ona görə də dairə seçki komissiyasının qeyd edilən qərarlarından qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə şikayət verilmədiyindən, müraciət mahiyyəti üzrə araşdırılmadan geri göndərilməlidir.

Araşdırma nəticəsində həmçinin müəyyən edilmişdir ki, iddia edilən qanunsuzluğun nədən ibarət olunması müəyyən edilmədiyindən, habelə mübahisələndirilən seçkilərin yekunları Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada və müddətdə elan olunmadığından yeni seçkilərin təyin edilməsi üçün qanuni əsaslar və zərurət yaranmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci, 4.1.2-ci və 7.1-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. 23 dekabr 2009-cu ilə təyin olunmuş bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizəd Məmmədov Yaqub Güloğlan oğlunun və Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi Aslanlı Gülağa Qulam oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 172 saylı müraciəti namizədliyin qeydə alınması ilə bağlı qanunvericiliklə müəyyən olunmuş şikayətvermə

müddəti ötürüldüyündən, habelə yeni seçkilərin təyin edilməsi tələbi əsassız olduğundan təmin edilmədən ərizəçilərə geri göndərilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |